# GƏNCƏLİLƏR ZƏFƏR ƏZMİ İLƏ YAŞAYIR

**İşğalçı Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Nizami yurdu Gəncəni beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq növbəti dəfə, azmış kimi növbəti dəfə atəşə tutdu. Vandalizmin son həddi olaraq, qana susayan erməni qəsbkarları, insanlıqla bir araya sığmayan yeni qətl törətdilər...**

Gecəyarı, dinc əhali yuxuda ikən ermənilərin atdığı raketin törətdiyi faciə dünya ictimaiyyətində faşizm, barbarlığın iyrənc nümunəsi kimi müzakirə olunduğu bir zamanda azğın düşmən daha bir faciəyə yenidən öz şərəfsiz imzasını atdı. Bəşəriyyətə sığmayan bu terror hadisəsi nəticəsində 20-yə yaxın ev dağıldı, ölənlər və yaralalanlar var. Müxtəlif təyinatlı obyektlərə ziyan dəyib. Hazırda dağıntılar altında qalan mülki şəxslərin xilas edilməsi işləri davam etdirilir. Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılığından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarlığın və Ermənistanın hərbi-siyasi rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının növbəti bariz göstəricisidir. Ermənistanın dinc əhalini, çoxmənzilli yaşayış binalarını və mülki obyektləri ağır artilleriya və raket atəşinə tutması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin əyani təsdiqidir. Döyüş meydanında güclü ordumuzla üz-üzə gəlməyə cürət etmədikləri üçün də hirs-hikkələrini günahsız insanlardan çıxmağa çalışırlar. Xislətlərindəki namərdliyə, qorxaqlığa, murdarlığa xas olaraq döyüş meydanındakı məğlubiyyətlərinin acısını əliyalın camaatdan alırlar. Ermənistanın Azərbaycanın dinc və günahsız əhalisinə qarşı qətliam törətməsi terrorçu xislətindən heç bir zaman əl çəkməyəcəyini göstərir. Mülki vətəndaşlarımıza tuşlanan hər nişan erməni faşistlərinin nə qədər vəhşi, rəhmsiz, qaniçən olduğunun növbəti sübutu, bariz nümunəsidir. Bu murdar xislətli təcavüzkarlar hətta dinc əhaliyə qadağan olunmuş odsaçanlardan - kaset döyüş başlıqlarından belə istifadə edirlər. Bu isə məkrli erməni siyasətinin çirkin üzünü, mənfur düşmənin öz qəddar əməllərini törətmək üçün bütün vasitələrə əl atmaqdan çəkinmədiyini göstərir. Bu faşist xislətli rejim əvvəlki ənənəsinə sadiq qalaraq yenə də çirkin simasını göstərir, insanlığa sığmayan əməllərə imza atır, uşaq, qoca, körpə bilmədən dinc əhalini hədəfə alır. Erməni vandalizmi Gəncədə neçə-neçə xoşbəxt ailənin arzularını puç etdi... Gəncədə terror vaxtı möcüzə nəticəsində salamat qalmış 2 yaşlı Nilayın mərhum ata və anası oktyabrın 18-də ad gününü qeyd edəcəkdi, uşaq dayanmadan ürəkyandırıcı ağlamaqla valideynlərini istəyir. Bəli, budur erməni vəhşilərinin iç üzü... Xarabalıqlara çevrilmiş ərazilərdə günahsız ağlayan, sızıldayan insanları görən hər kəs bu hadisələri, Ermənistanın hərbi siyasi rəhbərliyinin atdığı bu iyrənc qətl hərəkətini soyqırımı kimi qiymətləndirirlər. Lakin baş verən bütün bu hadisə gəncəlilərin əzmini qırmamışdır. Nikbin olan gəncəlilərin hər biri zəfər əzmi ilə yaşayır: "Təki Vətən sağ olsun, Qarabağımız işğaldan azad olunsun". Aydındır ki, erməni şovinistləri dinc əhalini hədəf almaqla xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq, tarixi dədə-baba torpaqlarımızın itirilməsi ilə razılaşmağa məcbur etmək istəyirlər.



Amma Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayıb, barışmayacaq və bu vəhşilikləri unutmayıb, unutmayacaq. Elə ona görə də Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi sayəsində müzəffər Ordumuz xalqın dəstəyi ilə Azərbaycanın tarixi torpaqlarını erməni işğalından azad edəcəyi vaxt yaxındadır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

